*UOT 37.01*

***Çinarə Məmməd qızı Qəhrəmanova***
*Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.orc/0000-0002-5928-9019*
*E-mail: chinara83@gmail.com*
*https://doi.org/10.69682/arti.2026.93(3).29-35*

# İQTİSADÇI KADRLARIN HAZIRLANMASINDA İŞGÜZAR KOMMUNİKASİYANIN ROLU VƏ MÖVCUD PROBLEMLƏR

***Chinara Mammad Gahramanova***
*associate professor at Azerbaijan State University of Economics,*
*doctor of philosophy in philology*

# THE ROLE OF BUSINESS COMMUNICATION IN THE TRAINING OF ECONOMIC SPECIALISTS AND EXISTING PROBLEMS

***Чинара Мамед гызы Гахраманова***
*доцент Азербайджанского Государственного Экономического Университета,*
*доктор философии по филологии*

# РОЛЬ ДЕЛОВОЙ КОММУНИКАЦИИ В ПОДГОТОВКЕ ЭКОНОМИЧЕСКИХ КАДРОВ И СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ

**Xülasə.** İnformasiya məkanının hökm sürdüyü müasir dövrdə informasiya mübadiləsi mütəxəssisin əsas göstəricilərindən biridir. İşgüzar nitq işgüzar imicin əsas komponentlərindən biridir. Bu gün iqtisadçı tələbələr işgüzar şifahi ünsiyyət və işgüzar yazışma bacarıqlarına malik olmalıdırlar. İqtisadçı üçün düzgün danışmaq bacarığı zəruridir, çünki bu peşə müştərilərlə işləməyə və dövlət qulluqçuları ilə danışıqlar aparmağa əsaslanır. Bu fəaliyyət sahəsi böyük həcmli iqtisadi və hüquqi sənədləri təhlil etmək və əsas məzmunu xidmət sifarişçisinə aydın şəkildə çatdırmaq bacarığını tələb edir. Buna görə də iqtisadçı tələbə təhsil prosesi zamanı müəyyən kommunikativ bacarıqlar formalaşdırmalı, işgüzar yazışmanın tərtibatına və məzmununa dair tələbləri bilməlidir.
***Açar sözlər:*** *iqtisadiyyat, işgüzar kommunikasiya, nitq mədəniyyəti, peşəkar ünsiyyət, ünsiyyət etikası.*

**Abstract.** In the modern era dominated by the information space, the exchange of information is one of the key indicators of a specialist's professional competence. Business speech is one of the main components of a professional business image. Today, students of economics must possess skills in oral business communication and business correspondence. For an economist, the ability to speak correctly and clearly is essential, since this profession is based on working with clients and conducting negotiations with government officials. This field of activity requires the ability to analyze large volumes of economic and legal documents and to convey their core content to the client in a clear and accessible manner. Therefore, during the educational process, an economics student must develop specific communicative skills and be familiar with the requirements for the structure and content of business correspondence.
***Keywords:*** *economics, business communication, speech culture, professional communication, communication ethics.*

**Аннотация.** В современный период доминирования информационного пространства обмен информацией является одним из ключевых показателей профессиональной деятельности специалиста. Деловая речь выступает одним из основных компонентов делового имиджа. Сегодня студенты-экономисты должны обладать навыками устной деловой коммуникации и деловой переписки. Для эконо-

миста умение правильно говорить является необходимым, поскольку данная профессия предполагает работу с клиентами и ведение переговоров с государственными служащими. Эта сфера деятельности требует умения анализировать большие объёмы экономических и юридических документов и ясно доводить их основное содержание до заказчика услуг. Поэтому в процессе обучения студент-экономист должен сформировать определённые коммуникативные навыки, а также знать требования к оформлению и содержанию деловой корреспонденции.

***Ключевые слова:*** *экономика, деловая коммуникация, культура речи, профессиональное общение, этика общения.*

**Giriş.** İşgüzar ünsiyyət iqtisadçılara peşə fəaliyyətlərini təşkil etməyə, bir-birlərini tanımağa, şəxsiyyətlərarası münasibətləri formalaşdırmağa və inkişaf etdirməyə imkan verir. İşgüzar nitqin əsas prinsip və normalarına riayət olunması hər bir iqtisadçının uğurunun təminatıdır. Lakin intensiv şəkildə inkişaf edən peşə təhsili sistemi müasir cəmiyyətin tələb etdiyi fəaliyyət və inkişaf səviyyəsini tam təmin edə bilmir. İqtisadçı tələbələrin təliminin məzmununda və texnologiyasında keyfiyyətcə dəyişikliklərə ehtiyac vardır.

İqtisadçılarda işgüzar nitq mədəniyyətinin formalaşdırılmasının əsas problemlərindən biri iqtisadiyyat təhsili zamanı bu aspektə kifayət qədər diqqət yetirilməməsidir. Çox vaxt tələbələr işgüzar ünsiyyət bacarıqlarının inkişafı üçün lazımi sayda praktik məşğələlər səmərəli almırlar ki, bu da həmkarlar və müştərilərlə ünsiyyət prosesində fikirlərini səmərəli və inandırıcı şəkildə ifadə edə bilməmələrinə gətirib çıxarır. Bir çoxları qanunları və qaydaları bilmənin uğurlu hüquqi fəaliyyət üçün kifayət etdiyini düşünür, lakin effektiv ünsiyyətin peşə uğurunun əsas amillərindən biri olduğunu dərk etmirlər. Digər problem isə işgüzar ünsiyyət mədəniyyətinin tədrisində fərdi yanaşmanın olmamasıdır. Hər bir tələbə və iqtisadçı təlimin səmərəliliyinə təsir göstərə bilən fərdi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlər nəzərə alınmalı və fərdi təlim proqramları hazırlanmalıdır. Nəhayət, problemlərdən biri də tədris prosesinin səmərəliliyini artırmaq üçün işgüzar ünsiyyət mədəniyyətinin öyrədilməsində müasir texnologiyalardan kifayət qədər istifadə olunmamasıdır. Tələbələrə və iqtisadçılara işgüzar nitq bacarıqlarını inkişaf etdirməyə kömək edə biləcək çoxsaylı onlayn kurslar və tətbiqlər mövcuddur, lakin onlar həmişə tam şəkildə istifadə edilmir.

Müasir dövrdə sənədləşmənin kompüter texnologiyaları ilə hazırlanması, ötürülməsi, işgüzar toplantıların keçirilməsi idarəetmə işlərinin həyata keçirilməsini sürətləndirir. Bu işləri həyata keçirmək üçün məlumat bazası hazırlanır, sənədləşmə işləri daim təkmilləşdirilir. Kompüterlərlə məlumatın işlənməsi metodları müəyyən edilir ki, bu da sənədlərin artıq ölkədaxili və ya beynəlxalq standartlara uyğun hazırlanması işini həm nizama salır, həm də sürətləndirir, işin keyfiyyətini yüksəldir. Hər il idarəetmə sənədlərinin miqdarı və formaları yaranır, mövcud olanlar yenilənir və təkmilləşir. Yaranan sənədlər idarə aparatı işçilərinin əlindən keçir. Məlumatların axtarılmasına xeyli zaman sərf edilir. Bu sahədə çalışan insanlar – iqtisadçılar, mühasiblər, kadrlar şöbəsinin (insan resursları) işçiləri tərəfindən həyata keçirilir. Bu sahənin işçiləri sənədləşmə işinin əsaslarını və təşkilini mütləq şəkildə bacarmalıdırlar. [1, s.55-56].

İşgüzar ünsiyyət mədəniyyəti üzrə apardığımız müşahidələr və tədqiqatlar əsasında belə nəticəyə gəlmək olar ki, işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması yalnız konkret şərtlər daxilində mümkündür. Bu şərtlərə dəyər-mənəvi (effektiv peşə fəaliyyətinə motivasiya), fərdi-psixoloji (işgüzar ünsiyyətin yüksək mədəniyyəti) və kommunikativ-fəaliyyət (peşə fəaliyyətinin məqsədlərinə çatmaq üçün kommunikativ imkanların mövcudluğu) amillər daxildir "L.İ.Çernışova işgüzar ünsiyyət mədəniyyətini iki və ya daha çox insan arasında informasiya mübadiləsi və praktiki fəaliyyətlə müşayiət olunan, konkret məqsədə nail olmağa yönəlmiş verbal qarşılıqlı əlaqə prosesi kimi başa düşür "[5, s.322].

İşgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması problemlərinə həsr olunmuş çoxsaylı elmi əsərlər mövcuddur. Keçən minilliyin pedaqoqları işgüzar etika, etiket və işgüzar kommunikasiya mədəniyyətinin əsaslarını qoymuşlar. Onlar təhsildə yeni yanaşmalar təklif etmiş və onları təkmilləşdirmişlər. Onların fikrincə, nitqin düzgün, aydın və etik qaydalara uyğun olması üçün tələbə məzmunlu söhbətlərdə və debatlarda fəal iştirak etməli, bu isə onun kommunikativ bacarıqlarını – öz mövqeyini müdafiə et-

mək, başqalarını dinləmək, müxtəlif mövzuları müzakirə etmək qabiliyyətini inkişaf etdirir.

Xüsusi qeyd etmək lazımdır ki, mütəxəssisin nitqi orfoqrafik və leksik cəhətdən ümumqəbul olunmuş normalara, eləcə də struktur və etik tələblərə uyğun olmalıdır. Bununla əlaqədar olaraq, "..peşəsi birbaşa işgüzar ünsiyyətin və peşəkar qarşılıqlı əlaqələrin həyata keçirilməsi ilə bağlı olan iqtisadçı tələbələrdə işgüzar nitq mədəniyyətinin inkişafı prosesinin öyrənilməsi xüsusilə zəruridir" [6, s.107]. Hazırda mütəxəssislərin peşəkar nitq mədəniyyətinə böyük tələbat mövcuddur, lakin eyni zamanda iqtisadçı tələbələrin təhsil hazırlığında müəyyən problemlər qalmaqdadır. İşgüzar ünsiyyət alimlər tərəfindən çoxfunksiyalı anlayış kimi qiymətləndirilir, yəni o, yalnız bir ünsiyyət sahəsində istifadə oluna bilməz. "Şifahi qarşılıqlı əlaqənin müxtəlif sahələrində funksional sistemlərə və üslublara uyğun ixtisaslaşmış işgüzar ünsiyyət seqmentləri mövcuddur; məsələn, rəsmi-işgüzar üslub, şifahi işgüzar nitq və işgüzar yazışma" [4, s.98].

İşgüzar yazılı nitqin öyrənilməsi şifahi nitqin təkmilləşdirilməsinə kömək edir. İşgüzar dil üzərində aparılan iş funksional üslub və nitq növünə uyğun olaraq dil vasitələrinin yerində tətbiqi bacarıqlarını formalaşdırır, işgüzar ünsiyyət mədəniyyətinin mənimsənilməsinə şərait yaradır və s. Bu keyfiyyətlər danışıq bacarıqlarının səviyyəsini yüksəldir və nəticə etibarilə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılmasının səmərəliliyini əhəmiyyətli dərəcədə artırır.

Müasir təhsil müəssisələri tələbələrə daim dəyişən situasiyalarda işləmək bacarığını və müxtəlif məsələlərə qeyri-standart həll yolları tapmaq qabiliyyətini aşılamağa böyük əhəmiyyət verir. Qeyd olunan bacarıqların formalaşdırılması üçün hər bir tələbəyə fərdi yanaşma zəruridir. Tədrisdə işgüzar ünsiyyət mədəniyyətinə fərdi yanaşmanın olmaması probleminin tədqiqinə bir çox digər tədqiqatçıların elmi işləri həsr olunmuşdur. İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin öyrədilməsində fərdi ya-naşmanın formalaşdırılması üçün aşağıdakı üsullardan istifadə etmək olar:

- **tədris üsulları** – müxtəlif təlim metodları (mühazirələr, seminarlar, treninqlər, işgüzar oyunlar, kiçik qruplarla iş və s.),
- **rəqəmsal (informasiya) üsullar** – müasir texnologiyaların bütün növləri (onlayn kurslar, vebinarlar, mobil tətbiqlər), hansı ki, tələbələrə onlar üçün əlverişli vaxtda və məkanda tədris materiallarına çıxış imkanı yaradır,
- **nəzarət üsulları** – təlim nəticələrinin qiymətləndirilməsi (bu, fərdi yanaşmanı korrektə etməyə, hansı üsulların daha səmərəli işlədiyini anlamağa imkan verir).

Bir çox müəlliflər hesab edirlər ki, tədris prosesinin səmərəliliyinin artırılması məqsədilə müasir texnologiyalardan kifayət qədər istifadə olunmaması probleminin mövcudluğu səbəbindən işgüzar ünsiyyətin struktur və məzmununun sistemli şəkildə yenidən qurulmasına ehtiyac vardır. Bu, həm ölkəmizdə, həm də xaricdə işgüzar ünsiyyətin və şəxsiyyətlərarası qarşılıqlı əlaqənin rolunun artması ilə bağlıdır. Bu artım əsasən beynəlxalq münasibətlərdə şəxsiyyətlərarası ünsiyyətin formalaşması, elektron kommunikasiyanın və virtual əmək bazarının inkişafı hesabına baş verir.

İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin səviyyəsinin yüksəldilməsinə töhfə verən fənlərin olmaması əsas problemlərdən biridir. İqtisadçı tələbələrdə işgüzar ünsiyyətin bir çox bacarıqları müəyyən tədris fənlərinin öyrənilməsi çərçivəsində formalaşır. Lakin bu kursların əksəriyyəti tədris planında mövcud deyil. İşgüzar ünsiyyət mədəniyyətinin inkişafına töhfə verən fənlərin olmaması iqtisadçı tələbələrin peşə hazırlığına mənfi təsir göstərir.

Məlumdur ki, bütün iqtisadçı tələbələr üçün ən faydalı bacarıqlardan biri müqavilələrin və iqtisadi rəylərin düzgün tərtib edilməsidir. Buna görə də tələbələrin təlimi başlanğıcdan etibarən xüsusi terminologiyadan istifadə etməklə səlis və savadlı yazılı mətnlərin hazırlanmasına yönəldilməlidir. Yazılı tapşırıqlar işgüzar yazı bacarıqlarının inkişafına kömək edir. "Bu istiqamət sayəsində sonrakı kurslarda iqtisadçı tələbələr işgüzar məktublar, protokollar, hesabatlar, arayışlar, izahat məktubları, aktlar, ərizələr və müqavilələr kimi rəsmi sənədlərin xüsusiyyətləri ilə tanış olurlar" [6]. "Şəxsi işgüzar sənədləri (tərcümeyi-hal, ərizə, bəyanat, izahat və s.), inzibati sənədləri düzgün tərtib etmək, elektron yazışmaları aparmaq hər bir insanın peşə mədəniyyətinin ayrılmaz hissəsidir." [2, s. 3]

Aşağı kurslarda iqtisadi terminologiya öyrənilir, yuxarı kurslarda isə şifahi nitq bacarıqları tədricən təkmilləşdirilir. İqtisadiyyat sahəsində çalışan mütəxəssislər danışıqlar zamanı tərəfdaşı müəyyən mənada yönləndirmək bacarıqla-

rına mükəmməl şəkildə yiyələnməli, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün kompromisə getməyi və ya zərurət yarandıqda geri çəkilməyi bacarmalıdırlar. İqtisadi ritorikanın bölmələri, xüsusilə "Işgüzar danışıqlar" və "İqtisadi mübahisələrin həlli" iqtisadçı tələbələrə interaktiv şifahi diskursu mənimsəməyə kömək edəcəkdir. Bu fənlər tələbələrə problemləri qeyri-standart şəkildə həll etməyi, xüsusilə mürəkkəb məsələlərdə konsensus əldə etməyi, öz mövqelərini formalaşdırmağı və müdafiə etməyi, müəyyən etik normalara riayət etməyi öyrədir. Lakin bu bölmələr də təhsil sistemində aşağı prioritetli hesab olunur. "İşgüzar danışıqlar" və "İqtisadi mübahisələrin həlli" fənlərinin mənimsənilməsi nəticəsində iqtisadçı tələbələr gələcəkdə vətəndaşlara ixtisaslı iqtisadi yardım göstərməyə imkan verən bacarıqlara yiyələnəcəklər. Bu yanaşmada iqtisadi və mənəvi prinsiplərin sintezi, onların qarşılıqlı əlaqəsi və qarşılıqlı şərtlənməsi müşahidə olunur.

İqtisadçının verbal ünsiyyət prosesində etik normalara əməl etməsi, qanun tələblərinə riayət etməsi, mənəvi- iqtisadi mədəniyyət səviyyəsinin yüksəldilməsi onun həm vətəndaşlar, həm də həmkarlar tərəfindən müsbət qəbul olunmasına şərait yaradır. Peşə fəaliyyəti zamanı iqtisadçı öz nitq davranışını daim təkmilləşdirməli, ünsiyyət mədəniyyətini yüksəltməlidir. Ünsiyyət prosesində təkcə danışmaq deyil, eyni zamanda kənardan özünü dinləmək, ifadələrin inandırıcılığını, aydınlığını, anlaşıqlılığını, müxtəlif nitq və qeyri-nitq ünsiyyət formalarının məqsədəuyğunluğunu, nitqin emosional çalarını və ifadəliliyini qiymətləndirmək vacibdir.

Fikrimizcə, iqtisadçı tələbələr üçün natiqlik sənəti peşə fəaliyyətinin həyata keçirilməsi üçün məcburi şərtdir. Tədqiqatçılar həmçinin hesab edirlər ki, iqtisadiyyat profilli tələbələr cüt və ya qrup halında işləməklə komanda şəklində fəaliyyət bacarıqlarını inkişaf etdirməlidirlər. Lakin müasir dövrdə iqtisadi təhsildə praktikyönlü təlimin tətbiqinə kifayət qədər diqqət yetirilmir, halbuki bu, gələcəkdə digər mütəxəssislərlə əməkdaşlıq etmək və şəxsi bacarıqlardan məqsədə çatmaq üçün istifadə etmək baxımından zəruridir. İşgüzar ünsiyyət mədəniyyətinin formalaşmasında əsas amil nəzəri biliklər deyil, onların tətbiq olunması bacarığıdır. İqtisadçının lüğət ehtiyatı zəngin olsa belə, əgər o, bundan istifadə etməyi bacarmırsa, nitq konstruksiyalarının bütün növlərini praktikada tətbiq edə bilməyəcəkdir. İşgüzar ünsiyyətin əsas fərqləndirici cəhəti səmərəli əməkdaşlıqdır və bu da əvvəlcədən praktiki hazırlıq tələb edir. Sualları düzgün formalaşdırmaq və vermək, protokollarla işləmək, onları öyrənmək və təhlil etmək zəruridir.

Müvafiq fənlərin olmaması səbəbindən iqtisadçı tələbələrin tez-tez qarşılaşdıqları konkret etik problemlər mövcuddur. Etik səhvlərə yol verməmək üçün işgüzar və peşə etikası, nitq və təşkilati etiket öyrənilməlidir. Düşünürük ki, "İşgüzar ünsiyyət" və "işgüzar konsultasiya" kurslarının öyrənilməsi nitqdə etik səhvlərin qarşısını almağa kömək edər. Bu fənlər sayəsində iqtisadçı tələbələr sənədləri düzgün tərtib etməyi, materialı səlis şəkildə ifadə etməyi, xidməti etiket tələblərinə riayət etməyi və s. öyrənirlər.

Təqdim olunan bütün kurslar tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaş-masına, xidməti, etik və təşkilati tələblərə əməl etməyə kömək edən ilkin bacarıqların inkişafına şərait yaradır.

Əsas tələblərdən bəziləri aşağıdakılardır:

- korrektlik – rəsmi sənədləri düzgün tərtib etmək bacarığı;
- məntiqilik – iqtisadi standart-klişelərdən istifadə;
- obyektivlik – informasiyanın şəxsiyyətsiz təqdim olunması;
- məqsədəuyğunluq – iqtisadi terminologiyanın düzgün istifadəsi;
- sosial məkanda açıqlıq – materialın görüşlərdə, iclaslarda təqdim edilməsi.

Təklif olunan fənlərin spektri olduqca genişdir. Lakin təəssüf ki, bu fənlərin əksəriyyəti İqtisadiyyat fakültəsinin tədris planına daxil edilməmişdir. Peşəkar terminologiya üzrə ilkin biliklər olmadan iqtisadçı tələbələrə işgüzar ünsiyyətin öyrədilməsi olduqca çətindir. İşgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün hər bir tələbə aşağıdakı tipli fənləri və ya kursları mənimsəməlidir: Danışıqlar və müqavilə kommunikasiyası; Emosional intellekt və kommunikasiya; Beynəlxalq biznes kommunikasiyası, İqtisadi terminologiya və peşəkar dil, Rəqəmsal biznes ünsiyyəti, Nitq mədəniyyəti və peşəkar ünsiyyət, İqtisadçılar üçün işgüzar ünsiyyət mədəniyyəti, İqtisadi ritorika, İctimaiyyətlə əlaqələr, İqtisadi konsultasiya və s.

İqtisadiyyat ixtisası üzrə bakalavr hazırlığının nəticələrinə dair tələblər bölməsində gələ-

cək mütəxəssislərin müxtəlif nitq və dil hazırlığı formalarında kommunikasiya bacarıqlarına yiyələnməsi nəzərdə tutulur ki, bu da qarşılıqlı əlaqənin çoxsaylı formalarında yaranan məsələlərin həllinə imkan verir. Bu məqamlar iqtisadçı olmaq istəyənlər üçün son dərəcə vacibdir və peşənin yüksək tələbləri, eləcə də bacarıq, bilik və ssəriştələrin geniş siyahısı ilə əsaslandırılır: xüsusi sənədlərlə işləmək, xaricdə Azərbaycan müştərilərinin maraqlarını təmsil etmək üçün iqtisadiyyat və dünya iqtisadiyyatı sistemlərini bilmək.

Azərbaycandilli olmayan mütəxəssislərlə qarşılıqlı əlaqə üçün xarici dil biliyi və ondan peşəkar səviyyədə işgüzar ünsiyyətdə məqsədləri, ideyaları və problemləri dəqiq ifadə etmək bacarığı tələb olunur. Qrammatika, morfologiya və sintaksis öyrənilsə belə, ixtisaslaşmış lüğət ehtiyatı olmadan iqtisadi problemlərin müzakirəsində lazımi dəqiqliyi təmin etmək mümkün deyil. Bu fənn aşağıdakı bölmələri əhatə etməlidir:

- Görüşlərin təşkili, rəsmi və qeyri-rəsmi gündəliklərin tərtibi, işgüzar söhbətin aparılması;
- Müsahibədə iştirak, CV, məktubların tərtibi;
- Korporativ mədəniyyət, iş haqqında danışıq;
- Şirkətin təqdimatı və təsviri, reklam;
- Işgüzar məktubun strukturu, təklif məktubu, reklam məktubu, şikayət məktubu, şikayətə cavab; danışıqlar və müqavilələrin bağlanması;
- İqtisadiyyat sistemlərinin növləri.

İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması ilə bağlı problemlərin aradan qaldırılması üçün tövsiyələr aşağıdakılardan ibarədir:

İşgüzar ünsiyyət mədəniyyəti uzunmüddətli inkişaf və təkmilləşmə mərhələlərindən keçən mürəkkəb, çoxsəviyyəli bir strukturdur. İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün effektiv tədris prosesinin yaradılmasına dair konkret tövsiyələrə ehtiyac vardır.

İlk növbədə, iqtisadçı tələbələrin təlimi peşəkar terminologiyanın düzgün istifadəsinə yönəldilməlidir. İqtisadi terminologiyanın düzgün tətbiqi, savadlı yazı bacarığı aşılayan fənlər tədris edilməlidir. Tələbələr sənədləri tərtib etməyi və emal etməyi bacarmalıdırlar, buna görə də tədris prosesi bu bacarıqların inkişafına xidmət etməlidir. Bundan əlavə, tədrisdə mümkün qədər çox yazılı tapşırıqlara yer verilməlidir ki, tələbələr işgüzar yazı bacarıqlarını qazansınlar. Bu, onlara gələcəkdə müxtəlif sənədlərlə (işgüzar məktublar, protokollar, hesabatlar, aktlar, ərizələr, müqavilələr, qərarlar və s.) işləməyə imkan verəcəkdir.

Peşəkar ünsiyyətin spesifikası iqtisadçılardan yüksək səviyyəli kommunikativ keyfiyyətlər, bacarıq və səriştələr tələb edir. Bu keyfiyyətlər həm təhsil prosesində, həm də praktiki fəaliyyətdə formalaşır. İqtisadçı tələbələr kommunikativ bacarıqları inkişaf etdirən xüsusi təlim formaları – debatlar, işgüzar oyunlar və yarışmalarla tanış edilməlidirlər. Ünsiyyət bütün iqtisadçı ixtisasları üzrə peşə fəaliyyətinin əsasını təşkil etdiyindən, kommunikativ bacarıqların işlənib hazırlanmasına yönəlmiş tapşırıqların tətbiqi tədris prosesinin səmərəliliyinin artırılması üçün əsas tövsiyələrdən biridir. “Xidmət sahəsində çalışanların işgüzar ünsiyyət etikasını bilməmələri və ona riayət etməmələri xidmətdən istifadə edənlərin onlarla ünsiyyət qurmaqdan imtina etmələri ilə nəticələnir və bu da xoşagələn bir hal deyil.” [3, s.50]

Xarici dillərə olan mövcud tələbatı nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, təhsil sistemi iqtisadçıların peşə hazırlığının keyfiyyətini xarici dilin öyrənilməsi prosesində işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması texnologiyalarının hazırlanması və tətbiqi yolu ilə artırmalıdır. Bu təlim texnologiyası müəllif metodikasının layihələndirilməsi zamanı pedaqoji məzmun xüsusiyyətlərini (əsas leksik mövzular, “İqtisadçı fəaliyyətində işgüzar ünsiyyət” bölməsi üzrə mövzular), prosessual xüsusiyyətləri (kiçik qruplarda birgə fəaliyyətin təşkili, ənənəvi və interaktiv metodların birləşdirilməsi, tipik situasiyalar, interaktiv təlim, case study, layihə metodu, işgüzar yazışmanın təhlili –“basket-metod”, fəaliyyət yolu ilə öyrənmə), eləcə də diaqnostik metodikalar kompleksini əhatə etməlidir.

Müasir texnologiyalardan kifayət qədər istifadə olunmaması problemini həll etmək üçün iqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılmasına yönəlmiş onlayn kursların və mobil tətbiqlərin yaradılması zəruridir. Bu, tələbələrə istənilən vaxt və dünyanın istənilən nöqtəsindən tədris materiallarına çıxış imkanı verəcəkdir. Biliklərin praktikada tez və anlaşılan şəkildə tətbiqinə kömək edən oyun və simulyatorlardan da istifadə etmək mümkündür. Bundan əlavə, problemin həlli yollarından biri kimi müasir texnologiyalardan fəal istifadə edərək

təcrübə və ideya mübadiləsi aparan iqtisadçı tələbələr icmasının yaradılması da göstərilə bilər.

İqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması problemlərinin təhlili əsasında aşağıdakı qanunauyğunluq müəyyən edilmişdir: əgər tələbə işgüzar leksika, qrammatik normalar, işgüzar etiket qaydaları və mədəniyyətlərarası işgüzar kommunikasiya üzrə biliklərə malik deyilsə, bu, effektiv peşəkar qarşılıqlı əlaqənin mümkünsüzlüyünə gətirib çıxarır. [7, s. 98] Ali məktəblərdə iqtisadçı tələbələrdə işgüzar ünsiyyət mədəniyyətinin formalaşdırılması sahəsində tədrisin əsas vəzifəsi təhsil proqramının məqsədlərinin peşəyönümlü təlim nəticələrinə maksimum dərəcədə yaxınlaşdırılmasıdır. Bu vəzifənin həlli tələbələri qrup şəklində işləməyə hazırlayan və onların özünüreallaşdırmasına imkan verən praktik məşğələlərin tətbiqi, ingilis dilinin öyrənilməsi, müasir texnologiyalar vasitəsilə interaktiv təlim metodlarından istifadə ilə mümkün ola bilər.

Hazırda iqtisadçıların peşə fəaliyyətində kommunikativ bacarıqlarını formalaşdıran kursların olmaması ciddi problem olaraq qalmaqdadır. Peşəkar nitq bacarıqlarının inkişafı baxımından uğurlu iqtisadçıların hazırlanmasının əsas vəzifəsi ali məktəb iqtisadiyyat təhsilinin iqtisadiyyat elmi və praktikadan ayrı düşməsi probleminin aradan qaldırılmasıdır. Bu ayrı-seçkilik iqtisadçı tələbələrin peşə hazırlığının zəifləməsinə səbəb olur. Göstərilən fənlərin iqtisadçı tələbələrin tədris proqramına daxil edilməsi ilə yanaşı, praktiki məşğələlərin, yazılı tapşırıqların tətbiqi, eləcə də peşəkar-nitq səriştələrinin formalaşdırılması üçün ən yeni interaktiv texnologiyalardan istifadə mühüm rol oynayır. İşgüzar ünsiyyət mədəniyyətinin tədrisində müasir texnologiyalar iqtisadçı tələbələrə tədris materiallarına asan çıxış imkanı yaradır, bu da təlim prosesini yüngülləşdirir və onun səmərəliliyini artırır. Bundan əlavə, müasir texnologiyalar interaktiv təlim metodlarının tətbiqinə şərait yaradır, tədris prosesini daha maraqlı edir və iqtisadçı tələbələrə əldə etdikləri bacarıqları praktikada tətbiq etməyə imkan verir.

Eyni zamanda, işgüzar ünsiyyət mədəniyyətinin tədrisində fərdi yanaşmanın tətbiqi zəruridir. Hər bir tələbə və iqtisadi təlimin səmərəliliyinə təsir göstərə bilən fərdi xüsusiyyətlərə malikdir. Buna görə də bu xüsusiyyətlər nəzərə alınmalı və fərdi təlim proqramları hazırlanmalıdır.

**Problemin aktuallığı.** Müasir qlobal iqtisadi mühitdə iqtisadçı mütəxəssislərin peşəkar uğuru yalnız analitik və texniki biliklərdən deyil, eyni zamanda onların işgüzar ünsiyyət bacarıqlarından bilavasitə asılıdır. Beynəlxalq danışıqlar, biznes yazışmaları, təqdimatlar, müqavilə müzakirələri və korporativ ünsiyyət müasir iqtisadçının gündəlik fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Bu baxımdan ali iqtisadi təhsil müəssisələrində təhsil alan tələbələrin işgüzar kommunikasiya sahəsində kifayət qədər hazırlıqlı olması əmək bazarının əsas tələblərindən biri kimi çıxış edir. Lakin müşahidələr və pedaqoji təcrübə göstərir ki, iqtisadçı tələbələrin əksəriyyəti peşəkar yazılı və şifahi ünsiyyət, rəsmi sənədlərin tərtibi, işgüzar dialoqların qurulması və kommunikativ strategiyaların tətbiqi sahəsində ciddi çətinliklərlə üzləşirlər. Bu boşluqlar onların gələcək peşə fəaliyyətində effektiv ünsiyyət qurmasına, qərar qəbuletmə proseslərində iştirakına və karyera inkişafına mənfi təsir göstərir. Buna görə də iqtisadçı tələbələrdə işgüzar ünsiyyət problemlərinin araşdırılması və onların aradan qaldırılması yollarının mü-əyyənləşdirilməsi müasir ali təhsilin aktual elmi və praktik vəzifələrindən biridir.

**Problemin elmi yeniliyi.** Təqdim olunan tədqiqatın elmi yeniliyi iqtisadçı tələbələrin işgüzar ünsiyyət problemlərinə dilçilik, pedaqogika və peşəkar kommunikasiya aspektlərinin inteqrasiyalı şəkildə yanaşılmasında ifadə olunur. Məqalədə işgüzar ünsiyyət yalnız nitq mədəniyyəti kontekstində deyil, iqtisadçı mütəxəssisin kommunikativ səriştənin struktur komponenti kimi təhlil edilir. Tədqiqat çərçivəsində iqtisadçı tələbələrdə müşahidə olunan kommunikativ çatışmazlıqlar sistemləşdirilir, onların sosial-psixoloji, metodik və tədris-məzmun səbəbləri müəyyənləşdirilir və bu problemlərin iqtisadi fəaliyyətə təsiri elmi əsaslarla izah olunur. Bundan əlavə, işgüzar ünsiyyət bacarıqlarının formalaşmasına yönəlmiş yeni pedaqoji yanaşmalar, kommunikativ modellər və interaktiv təlim strategiyaları təklif edilir ki, bu da mövcud tədqiqatlardan fərqli olaraq problemi praktik nəticələrə istiqamətləndirir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr ali iqtisadi təhsil müəssisələrində işgüzar ünsiyyət və peşəkar kommunikasiya fənlərinin tədrisinin təkmilləşdirilməsində istifadə oluna bilər. Tədqiqatda müəyyən edilmiş problemlər və onların həlli yolları iqtisadçı tələbələrin ünsiyyət bacarıqlarının inkişafına yönəlmiş tədris proqramlarının, dərs vəsaitlərinin və metodik göstərişlərin hazırlanmasında əsas mənbə kimi çıxış edə bilər. Eyni zamanda məqalədə irəli sürülən təkliflər müəllimlərə tələbələrin işgüzar yazı, rəsmi nitq, təqdimat və müzakirə bacarıqlarını məqsədyönlü şəkildə formalaşdırmağa imkan verir. Bu isə nəticə etibarilə iqtisadçı məzunların

əmək bazarına daha hazırlıqlı çıxmasına, peşəkar mühitdə effektiv ünsiyyət qurmasına və beynəlxalq iqtisadi əlaqələrdə uğurla iştirak etməsinə şərait yaradır.

## Ədəbiyyat


1. Qəhrəmanova, Ç. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik / Ç. Qəhrəmanova. – Bakı: MSV-nəşr, –2024. – 286 s.
2. Xəlilov, B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya / Bakı, 2021, –476 səh. // https://adpuquba.edu.az/wp-content/uploads/2020/12/Buludxan-X%C9%99lilov-Isguzar-akademik-kommunikasiya.pdf
3. Salayeva, N.N., Fərəcova G.B. "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya", Orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün dərslik. Birinci nəşr. Bakı–2024, «CLASS PRİNT MMC», 196 səh. https://shamakhi-adpu.az/wp-content/uploads/2025/08/N.Salayeva-G.F%C9%99r%C9%99cova.Az%C9%99rbaycan-dilind%C9%99-isguzar-v%C9%99-akademik-kommunikasiya.pdf
4. Панфилова, А.П. Деловая коммуникация в профессиональной деятельности / А.П. Панфилова. – СПб.: Знание, –2001. –433 с.
5. Чернышова, Л.И. Деловое общение / Л.И.Чернышова. – М.: ЮНИТИ, –2012. –414 с.
6. Большунов, А.Я., Киселева Н.И., Марченко Г.И., Новиков А.В. Деловые коммуникации / ред. А. Г. Тюриков, Л. И. Чернышова.–М.: КноРус, –2019. –282 с.
7. Бороздина, Г.В., Кормнова Н.А. Психология и этика делового общения / Г.В.Бороздина, Н.А. Кормнова – М.: Юрайт, –2023. –392 с.
8. Hyland, K., & Hamp-Lyons, L. EAP: Issues and Directions // Journal of English for Academic Purposes, 1, –p.1-12. 2002. https://doi.org/10.1016/S1475-1585(02)00002-4
9. Plump, C.M., & LaRosa, J. Using Kahoot! In the Classroom to Create Engagement and Active Learning: A Game-Based Technology Solution for eLearning Novices // Management Teaching Review, –2017, v2, –p.151-158. https://doi.org/10.1177/2379298116689783


**Redaksiyaya daxil olub:** 16.04.2026